www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qəzet 1999-cu ildən çıxır

# Dəmir yolu strukturunun təşkili nəqliyyatın ahəngdar inkişafını təmin edir



"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşlar. "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov dövlətimizin başçısına və xanımına burada aparılan işlər barədə məlumat vermiş, bildirmişdir ki, 1956-cı ildə inşa edilən bu binanın ümumi sahəsi 30 min kvadratmetrdir. Foyedə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin siyasi fəaliyyətləri, həmçinin ölkəmizdə dəmir yolunun inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotolardan ibarət stend yaradılıb. Ümumilikdə, Azərbaycanda dəmir yolunun inkişafı ulu öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi zamanı əhatə edir. Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycanda dəmir yolları müasir dövrün tələblərinə uyğunlaşdırılıb, onun maddi-texniki bazası möhkəmləndirilib. Dövlətimizin başçısının diqqət və qayğısı sayəsində dəmir yolu nəqliyyatında əsaslı dəyişikliklərə, köklü islahatlara və davamlı inkişafa nail olunub.

Binada ən müasir işıqlandırma sistemi qurulub. Dəmir yolunun fasiləsiz iş rejimini nəzərə alaraq, binanın həyətyanı ərazisində iki transformator və generator quraşdırılıb, su anbarları inşa edilib. Burada, eyni zamanda, beynəlxalq standartlara cavab verən yanğın təhlükəsizliyi və mühəndis kommunikasiya sistemləri tam şəkildə yenilənib. Ətraf ərazilərdə əsaslı abadlıq-quruculuq və yaşıllaşdırma işləri görülüb.

* * * * *

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış oldular.

Vağzalın əsas binasının fasadı memarlıq üslubunun saxlanması şərtilə yenidən qurulub, binanın daxilində əsaslı təmir işləri görülüb. Mərkəzdən müşahidə kameraları vasitəsilə vağzal ərazisinə nəzarət olunur.

Vağzal binasının ikinci mərtəbəsində 2 saylı "ASAN kommunal" fəaliyyət göstərir. "ASAN kommunal" mərkəzlərinin yaradılması Azərbaycan Prezidentinin ötən il imzaladığı Fərmanla Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Bu mərkəz qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara, o cümlədən vağzaldan istifadə edən bütün sərnişinlərə xidmət göstərəcək. Burada 3 qurum - "Azərişıq" və "Azərsu" ASC-lər, həmçinin "Azəriqaz" İstehsalat Birliyi tərəfindən 45 növ xidmətin göstərilməsi nəzərdə tutulur. Mərkəzdə "Azərişıq" və "Azərsu" ASC-lərin hər biri üçün 10, "Azəriqaz" İstehsalat Birliyi üçün isə 9 xidmət pəncərəsi yaradılıb. Bank və notariat xidmətlərinin də təşkil edildiyi mərkəzdə 51 əməkdaş, 20 könüllü, ümumilikdə, 71 nəfər işlə təmin olunub. Mərkəzdə könüllülər otağı, konfrans zalı, uşaq əyləncə sahəsi yaradılıb. Onu da deyək ki, bu il yanvarın 15-dən fəaliyyətə başlayan 1 saylı "ASAN kommunal" mərkəzində bu günədək 3200-dən artıq müraciət qeydə alınıb. Bakı Dəmir Yolu Vağzalının belə yüksək səviyyədə yenidən qurulması, ümumilikdə, ölkəmizdə həyata keçirilən sosial layihələrin uğurla davam etməsini aydın göstərir. Bu layihənin icra olunması həm də Azərbaycan dəmir yollarının inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir.